# Pərviz Kazimi də “İlin alimi” müsabiqəsinin qaliblərindən oldu






**Bakı Dövlət Universitetinin (BDU) əməkdaşları arasında keçirilən “İlin alimi” müsabiqəsinin nəticələri açıqlanıb.**
BDU-dan Azerbaycan-ruznamesi.org-un əldə etdiyi məlumata görə, müsabiqə 27 Mart - Elm Gününə həsr olunub.

Müsabiqə Komissiyasının qərarına əsasən, təbiət və dəqiq elmlər üzrə BDU-nun nəzdində Fizika Problemləri Elmi-Tədqiqat İnstitutunun Nəzəri fizika şöbəsinin müdiri, dosent Şahin Ağayev I, Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Vaqif Quliyev II, BDU-nun Tədqiqat, İnkişaf və İnnovasiyalar üzrə Mükəmməllik Mərkəzinin Ekoloji kimya və ətraf mühitin qorunması elmi-tədqiqat laboratoriyasının aparıcı elmi işçisi Kamran Mahmudov III, humanitar və ictimai elmlər üzrə İnformasiya və sənəd menecmenti fakültəsinin Kitabxanaşünaslıq kafedrasının dosenti Pərviz Kazimi I, Sənəd menecmenti kafedrasının müdiri Nadir İsmayılov II, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin Dünya iqtisadiyyatı kafedrasının müdiri Fərid Babayev III yerə layiq görülüblər.

BDU əməkdaşları arasında "İlin alimi" nominasiyası üzrə müsabiqə dörd ildir keçirilir. Müsabiqənin məqsədi il ərzində fəal elmi tədqiqat apararaq yüksək nəticələrə nail olmuş, təsir (impakt) faktorlu, tanınmış bazalarda indekslənən nüfuzlu jurnallarda və nəşrlərdə dərc edilmiş məqalələri və digər elmi əsərləri olan, elmi işlərinə istinad edilən BDU əməkdaşlarının mükafatlandırılmasıdır.

Sonda alimimizi qazandığı uğur münasibətilə təbrik edir, işlərində uğurlar arzulayırıq.

**Azerbaycan-ruznamesi.org**